# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 49** **Bakı şəhəri, 21 fevral 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 7 iyul tarixli 105 nömrəli və "Dövlət Taxıl Fonduna tədarük edilən taxılın həcminin müəyyən edilməsi haqqında" 2012-ci il 18 sentyabr tarixli 206 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Taxıl haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 15 oktyabr tarixli 386-VIQD nömrəli Qanununun tətbiqi və "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 370 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 oktyabr tarixli 1471 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 602; 2010, № 9, maddə 828; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955; 2018, № 8, maddə 1817; 2019, № 12, maddə 2101; 2021, № 8, maddə 962) ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bənddə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin" sözləri və "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2. 4.2-ci bənddə "və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ", Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət Sifarişçisinin" sözləri ilə əvəz edilsin.

**2.** "Dövlət Taxıl Fonduna tədarük edilən taxılın həcminin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 18 sentyabr tarixli 206 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 932; 2014, № 12, maddə 1681) 2-ci hissəsində "Fövqəladə Hallar Nazirliyinə" sözləri "Dövlət Ehtiyatları Agentliyinə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***